## *RƏHBƏRİN SEVDİYİ GÜLLƏR*

Heydər baba uşaqların görüşünə gəlmişdi. Balacalar onu intizarla gözləyirdilər. Əllərindəki tər-təzə çiçəklər də sanki bu nurlu insan üçün intizarda idilər.

Budur, Heydər baba otağa daxil oldu. Sanki içəri günəş şüaları səpələndi. Adamların ürəkləri isindi. Balaca bir qız yanındakına astadan dedi:

- Necə də gözəl insandır. O, mənim babamdır. Amma bu otaq onun üçün balacadır. Belə bir insanla görüş gərək çöldə, genişlikdə olaydı.

Sanki Heydər baba bu qızcığazın sözlərini eşitdi.

- Uşaqlar, bu otaq balacadır. Bayırda isə uşaq çoxdur. Gəlin çölə çıxaq.

Hamı çölə çıxdı.

Heydər baba bir-bir uşaqları bağrına basdı. Sanki balacaların sinələri isindi.

- Siz Azərbaycanımızın gələcəyisiniz, - dedi Heydər baba. Uşaqlar əl çaldılar.

Balaca bir qızcığaz qucağındakı gül topası ilə rəhbərə yaxınlaşdı. Heydər baba balaca qızcığazı bağrına basdı. Sonra qızın qucağındakı tər gülləri alıb qoxladı:

- Özün də bir çiçək topasısan, - dedi. Bu güllərdə Vətənimizin ətri var. Nə bildin ki, mən bu gülləri sevirəm?!
- Uşaqlarla görüşün sonuna kimi o güllər dahi rəhbərin qucağında oldu.

Qızcığaza elə gəldi ki, güllər də onun kimi sevinirlər...

***Məmməd Namaz***

***Günəş ömürlü insan. – B.: Təhsil, 2012. – S.6-7.***